

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

22 fevral 2024-cü il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 7 (3671)


# İki dövlət, tək millət, vahid güc

## Türkiyə-Azərbaycan qardaşlığı bölgədə sülhün qarantıdır

**Tarixi növbədənkənar seçkilərdən sonra Prezident İlham Əliyev ilk xarici səfərini qardaş Türkiyəyə etdi. Bu, dostluq və qardaşlıq bağlarına sədaqətin ən parlaq nümunələrindən daha biri idi.**



Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ikitərəfli və geniş tərkibli görüşlər zamanı, həmçinin mətbuat qarşısında səsləndirilən bəyanatlarda iki qardaş ölkənin keçmiş əlaqələri, mövcud münasibətləri, əməkdaşlıq perspektivləri barədə önəmli açıqlamalar, çox vacib mesajlar veriblər.

Prezident İlham Əliyev bildirib ki, Türkiyə bölgəmizdə əmin-amanlığın, sülhün və işbirliyinin qarantıdır. İkinci Qarabağ savaşında Türkiyə ilk anlardan Azərbaycana siyasi və mənəvi dəstək verib ki, bu da bir çoxlarını bu işə müdaxilə etməkdən kənarda saxlayıb: **"Bu, siyasi və mənəvi dəstək bizə yetərli oldu və 30 il ərzində sülh vasitəsilə həll edə bilmədiyimiz tarixi məsələmizi biz savaş meydanında cəmi 44 gün ərzində həll etdik".**

Dövlətimizin başçısı Türk dünyasının birliyinə xüsusilə toxunub.

Enerji işbirliyindən danışarkən isə qeyd edib ki, keçən il Azərbaycandan Türkiyəyə 9 milyard kubmetr təbii qaz ixrac edilib. Əldə edilmiş razılaşmalar əsasında qazın həcminin artırılması ilə yanaşı, nəqliyyat sahəsində də yeni imkanlar nəzərdən keçirilir. Bakı-Tbilisi-Qars dəmir yolu yüklərin həcmini 1 milyon tondan 5 milyon tona çatdırmaq üçün bu ilin ortalarında tam istismara verilməlidir.

İki qardaş ölkənin əməkdaşlığının önəmli istiqamətlərindən biri hərbi sahədir. Hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm də Azərbaycanda keçirilir. İkinci Qarabağ savaşı və ondan sonra keçirilən antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin Ordu modeli Azərbaycanda artıq tam oturuşub. Müdafiə sənayesi sahəsində də yeni imkanlar açılıb və bu barədə geniş müzakirələr aparılıb.

Türkiyə-Azərbaycan Universitetinin yaradılmasını dövlətimizin başçısı birliyin növbəti rəmzi adlandırıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ikitərəfli və geniş tərkibli görüşlər zamanı əlaqələrin bütün istiqamətlərinin nəzərdən keçirildiyini, regional və beynəlxalq məsələlərin dəyərləndirildiyini deyib. Azərbaycan ilə əməkdaşlığın ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi "Bir millət, iki dövlət" şüarı əsasında irəlilədiyini söyləyən Türkiyənin lideri ümumi ticarət dövriyyəsinin keçən il ilk dəfə 7,5 milyard dollar səviyyəsinə çatdığını, hədəfin 15 milyard dollar olduğunu bildirib.

Rəcəb Tayyib Ərdoğan həmçinin Azərbaycanla Ermənistan arasında davamlı sülhün imzalanmasının sülh, əmin-amanlıq və sabitlik üçün yeni bir ümid mənbəyi olduğunu deyib: **"Bu prosesdə Azərbaycan ilə birlikdə çiyin-çiyinə hərəkət edirik. Qarabağda işğala son qoyulması ilə birlikdə bölgəmizdə davamlı sülh üçün tarixi bir fürsət pəncərəsi açıldı. Bu fürsət pəncərəsinin bağlanmaması çox önəmlidir".**

Səfərin yekunlarını şərh edən ekspertlərin fikrincə, səsləndirilən bəyanatlar bir daha onu təsdiq etmiş oldu ki, Azərbaycanla Türkiyə strateji müttəfiqlər kimi iki dövlət, tək millət və vahid güc olaraq dünyada öz yerlərini tutublar.

# Prezidentin Münxen görüşləri...

## Azərbaycanla əməkdaşlığa yüksək dəyər verilir

Prezident İlham Əliyev fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərində səfərdə olub.

Dövlətimizin başçısı qarşı tərəflərin müraciətlərinə əsasən, üç gün ərzində 23 mühüm görüş keçirib.

Təhlilçilər hesab edir ki, keçirilən görüşlərin intensivliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan böyük hörmət və diqqətin göstəricisidir. Dünya ölkələri, böyük iqtisadi təşkilatlar Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir və hər kəs qlobal liderlə görüşmək istəyir.

# Yeni dövr, yeni hədəflər

## Prezident prioritet istiqamətləri müəyyən edib

Seçkilərdən sonra Prezident İlham Əliyev yeni prioritet istiqamətləri müəyyən edib. Bunlardan birincisi hərbi, təhlükəsizlik məsələləri, o cümlədən hərbi sənayenin daha da genişləndirilməsidir.

İkinci sırada milli-ideoloji məsələlərdə vahid mövqeyin qorunması, milli ənənələrə, dəyərlərə sadiq nəsillərin yetişdirilməsi gəlir. Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində işlərin intensivləşdirilməsi, bölgənin geosiyasi landşaftının dəyişdirilməsi, infrastruktur quruculuğu, keçmiş köçkünlərin doğma yurdlarına qaytarılması prosesinin davam etdirilməsi qarşıdakı hədəflərdəndir.

# Strateji tərəfdaşlıq diqqət mərkəzindədir

## General-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarı ilə görüşüb

**Fevralın 15-də Qazaxıstan Respublikasının daxili işlər naziri polis general-leytenantı Erjan Sadenovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə iki günlük rəsmi səfərə gəlib.**

Nazir Erjan Sadenov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan general-polkovnik V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Erjan Sadenovu təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladaraq hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

*(Ardı 2-ci səhifədə)*




Daha etibarlı təhlükəsizlik naminə... 2

Günün mövzusu 3

Hərə bir qəhrəman oldu 3

Həmkarımızın qələbə sorağı 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### COP29-a hazırlıq müzakirəsi

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində COP29-un 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan təşkili ilə əlaqədar olaraq dəyirmi masa keçirilib. Toplantıda sözügedən tədbirlərin Bakı şəhərində keçirilməsi ilə əlaqədar bir sıra küçə və prospektlərdə əsaslı təmir-bərpa işlərinin görülməsi, yeraltı və yerüstü mühəndis kommunikasiya xətlərinin yerlərinin təyin edilməsi, ümumi tədbirlər planının hazırlanması məsələləri müzakirə olunub.

### Xocalıda yeni içməli su mənbəyi yaradılır

Böyük Qayıdış Proqramının icrası nəticəsində şəhərdə məskunlaşmanın və içməli suya tələbatın artacağı nəzərə alınaraq Xocalıda 2 yeni subartezian quyusunun qazılmasına qərar verilib. Artıq quyulardan biri istismara hazır vəziyyətə gətirilib, digər quyunun isə qazıntısı işləri davam etdirilir. Yeni subartezian quyuları 24 saat fasiləsiz içməli su ilə təmin etməyə imkan verəcək.

### İqtisadi yüksəliş dövrü

Son illərdə Azərbaycan iqtisadiyyatının və sosial təminat sisteminin kifayət qədər gücləınməsi müşahidə olunub. 2003-cü ildə minimum pensiya 20 manat idi, hazırda isə 280 manat təşkil edir. 2003-cü ildə Azərbaycanda ÜDM-in dollar ekvivalentində məbləği cəmi 7 milyard dollar idisə, bu gün həmin məbləğ 72 milyard dollardır. Strateji valyuta ehtiyatları həmin dövrdə 2 milyard dollardan az idi, bu rəqəm hazırda 70 milyard dollara çatıb.

### Əlilliyi olan uşaqlara dövlət qayğısı

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin uşaq reabilitasiya müəssisələri tərəfindən bu ilin yanvar ayında 18 yaşadək əlilliyi olan 2309 uşağa reabilitasiya xidmətləri göstərilib. Nazirlikdən verilən məlumata görə, onlardan 161 nəfəri stasionar, 1406 nəfəri ambulator, 114 nəfəri icma əsaslı, 567 nəfəri onlayn, 22 nəfəri ippoterapiya, 39 nəfəri səyyar reabilitasiya xidmətlərinə cəlb edilib.

### Avtomobil parkında "yaşıl dövr" başlayır

Son illər ölkədə "yaşıl iqtisadiyyat"ın inkişafı ilə bağlı reallaşdırılan tədbirlər öz nəticəsini verməkdədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilib ki, 2019-cu ildən etibarən mərhələlərlə elektrik və hibrid mühərrikli avtomobillərə vergi güzəştləri tətbiq olunandan sonra elektromobillərin idxalında artım müşahidə edilir.

### Sərnişin daşıyanlar xəbərdar edilir

Ötən il respublika ərazisində avtobus və mikroavtobus sürücülərinin təqsiri ucbatından 42 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 24 nəfər həyatını itirib, 37 nəfər isə yaralanıb. DİN BDYPİ-dən bildirilib ki, yol qəzalarının ağırlıq dərəcəsinin artmasına ictimai nəqliyyat vasitələrinin köhnəlmiş olması da təsir edir. İdarə texniki standartlara cavab verməyən avtomobillərlə sərnişindaşıma fəaliyyəti ilə məşğul olanların nəzərinə çatdırır ki, bu kimi hallar aşkarlandığı təqdirdə ciddi tənbeh tədbirləri görüləcək.

### Azərbaycana gələnlərin sayı artıb

Dövlət Statistika Komitəsindən bildirilib ki, 2023-cü ilin yanvar ayı ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 25,1 faiz artaraq 61,3 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 1,5 dəfə artaraq 4,7 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 35,1 min nəfər olub.

### Qarabağda ötən ilin mənzərəsi

Ötən il Qarabağ iqtisadi rayonu üzrə avtomobil nəqliyyatı ilə 4 milyon 368 min ton yük, 30 milyon 314 min nəfər sərnişin daşınıb. İctimai iaşə dövriyyəsi 42 milyon 142,4 min manat olub. Qarabağ iqtisadi rayonunda 984 yeni iş yeri açılıb. Yanvarın 1-nə Qarabağda əhalinin sayı ümumi ölkə əhalisinin 7,3%-ni təşkil edib, yəni 743 196 nəfər olub.

### Ağdamda Azərbaycan brendi yaradılır

Ağdam Sənaye Parkında 20 sahibkarlıq subyektinə rezidentlik, altı sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu rezidentlər tərəfindən 1700-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. Bu il Sənaye Parkında 5-dən çox müəssisənin fəaliyyətə başlaması planlaşdırılır. Müəssisələrdə istehsal olunacaq məhsullar "Made In Azerbaijan" brendi adı altında ixrac ediləcək.

# Strateji tərəfdaşlıq diqqət mərkəzindədir

## General-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarı ilə görüşüb

*(Əvvəli 1-ci səhifədə)*

Qazaxıstan Respublikasının daxili işlər naziri polis general-leytenantı Erjan Sadenov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə general-polkovnik V.Eyvazova məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə



maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış oldular.

# Daha etibarlı təhlükəsizlik naminə...

## DİN-in təklifi vətəndaş məmnunluğu ilə müşahidə olunur

**Cinayətlərin açılmasında, ictimai qaydanın qorunmasında, yol hərəkəti, eləcə də mülkiyyət təhlükəsizliyinin təmin olunmasında kamera sisteminin əvəzsiz rolu var.**



Çünki istənilən şəxs və ya şəxslər əməllərini həyata keçirməzdən əvvəl müşahidə kameralarının olub-olmamasına diqqət yetirir ki, bu da müəyyən mənada maneə, çəkindirici vasitə deməkdir. Qısası, təhlükəsizlik kameralarının olması təkcə cinayətlərin deyil, ətrafda müşahidə olunan bütün neqativ halların vaxtında aradan qaldırılmasında faydalıdır.

Bu günlərdə Daxili İşlər Nazirliyinin kameralarla bağlı ictimaiyyətə etdiyi çağırışa vətəndaşlar müsbət reaksiya veriblər. Onlar dövlət maliyyəsi hesabına quraşdırılan təhlükəsizlik kameraları ilə yanaşı, özlərinə məxsus obyektlərdə, mənzillərdə kameraların quraşdırılmasının hər hansı problemə yol açmadığını, əksinə, risklərdən qorunmanın ən asan və optimal yolu kimi qiymətləndiriblər.

Mütəxəssislər oğurluq hallarına qarşı mübarizədə əsas metodlardan sayılan təhlükəsizlik kameralarının arxiv görüntülərinin cinayətlərin açılmasında, sübutların toplanmasında, şübhəli şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilməsində mühüm amil olduğunu, aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində açılma faizinin 70-80 faiz təşkil etdiyini bildiriblər.

Yeri gəlmişkən, Daxili İşlər Nazirliyində ötən ilin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclasında da idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyi, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət funksiyalarını daha böyük peşəkarlıqla həyata keçirməsinin vacibliyi əməkdaşların diqqətinə çatdırılıb.

*Teymur Əlizadə*
*polis mayoru*

# Ötən ayın statistikası

## Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə davam edir



Narkomanlığa və Narkotik Vasitələrin Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından verilən məlumata görə, ötən ay hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 1098 cinayət faktı aşkarlanıb. Onlardan 316-sı narkotik vasitələrin qanunsuz satışı, 782-si narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması ilə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 831 kiloqram 021,607 qram narkotik vasitələrin və psixotrop maddələrin 86 kiloqram 213,9 qramı heroin, 681 kiloqram 712,79 qramı marixuana, 16 kiloqram 104,876 qramı tiryək, 22 kiloqram 833,55 qramı həşiş, 23 kiloqram 078,491 qramı psixotrop maddələr, 1 kiloqram 078,255 qramı digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 690 ədəd həb metadon, 69,2 qram güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

2024-cü ilin yanvar ayı ərzində qanunsuz dövriyyədən götürülmüş 831 kiloqramdan çox narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 22 milyon 476 min manat təşkil edir.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 29 fakt aşkar edilmiş, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 422 kiloqram 862,838 qram və 690 ədəd həb metadon, müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 27-si qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 187 kiloqram 290,6 qram narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

109 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 133 kiloqram 013,1 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə olunub.

Təhlil göstərir ki, 2023-cü ilin yanvar ayı ilə müqayisədə 2024-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 36, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 6, digər növ cinayət faktların sayı 8, qrup halında olan cinayətlərin sayı 5 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 170 nəfər azalıb.

Aşkar edilən ümumi faktların sayı 48 fakt, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 2 fakt, narkotiklərin satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 98 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 156 kiloqram 61,318 qram artıb.

# Payız imtahan sessiyası bitib

## İmtahanların obyektivliyi və şəffaflığı təmin edilib



DİN-in Polis Akademiyasında 2023/2024-cü tədris ilinin payız imtahan sessiyası bitib.

Fənlərin xüsusiyyətlərinə müvafiq olaraq imtahanlar təsdiq olunmuş cədvəl üzrə, şifahi, yazılı, praktiki və test üsulu ilə keçirilib.

Bununla bağlı "Polis"in sorğusuna cavab olaraq Akademiyadan bildirilib ki, imtahanlara hazırlığın səmərəli təşkili və kursantların daha



yaxşı hazırlaşmaları üçün Akademiyanın kitabxanaları gücləndirilmiş iş rejimində fəaliyyət göstərib.

Qeyd edək ki, imtahanlarda obyektivliyi və şəffaflığı təmin etmək məqsədilə Akademiya rəisinin müvafiq əmri ilə apellyasiya və fənn komissiyaları yaradılıb.

# Günün mövzusu

## Narkomaniya ilə mübarizə və informasiya təhlükəsizliyi prioritetdir

**Bakı Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Səbail rayon R.Hüseynov adına 49 nömrəli intellekt məktəb-liseydə narkomaniyaya qarşı mübarizə və informasiya təhlükəsizliyi mövzularında maarifləndirici görüş keçirilib.**





Məktəbin direktoru Elza Bağırzadə belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışarkən qeyd edib ki, narkomaniyanın xüsusən də yeniyetmə və gənclər arasında yayılması onun törədə biləcəyi ağır fəsadlar barədə məlumatsızlıqdan qaynaqlanır. Məhz polisin sağlam həyat tərzini təbliğ edən maarifləndirici tədbirləri gələcəyimiz olan gəncləri cəmiyyəti dərindən düşündürən bu ciddi problemdən qorumağa kömək edir.

Görüşdə çıxış edən DİN Mətbuat Xidmətinin, Bakı şəhər BPİ-nin, eləcə də ərazi polis orqanının əməkdaşları narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizədən, həyata keçirilən əməliyyat tədbirlərindən danışıblar. Onlar narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkiblər.

Bildirilib ki, təkcə cari ilin yanvar ayı ərzində paytaxt və bölgələrdə 50-dən artıq əməliyyat tədbirləri həyata keçirilib və nəticədə ümumi dəyəri 8 milyon manat olan 212 kiloqram narkotik vasitə, 12 min 791 ədəd psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

Maarifləndirici tədbirdə həmçinin informasiya təhlükəsizliyindən də söz açılıb. Sürətli və sərhədsiz əlçatanlıq sayəsində asanlıqla əldə edə biləcəyimiz informasiyalar arasında ziyanı ola biləcək informasiyalar barədə məlumat verilib. Eyni zamanda, kibercinayətkarlar tərəfindən müxtəlif sosial media hesabları vasitəsilə vətəndaşların şəxsi, eləcə də kart məlumatlarının oğurlandığı şagirdlərin diqqətinə çatdırılıb. Vurğulanıb ki, bu kimi hallarla mübarizədə ən effektiv üsul kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi və vətəndaşların maarifləndirilməsidir.

Analoji tədbirlər Suraxanı rayon 87 saylı tam orta məktəbdə, Səbail rayon 239 saylı tam orta məktəbdə, Şirvan Şəhər Polis Şöbəsinin təşkilatçılığı ilə şəhər ərazisində yerləşən Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində keçirilib.

Tədbirlərin sonunda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# XX əsrin faciəsi

## Xocalı xalqımızın qan yaddaşıdır




Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından otuz iki il ötür.

26 fevral 1992-ci il... Bu o tarixdir ki, erməni faşistləri bir gecədə Xocalı şəhərini yerlə-yeksan edib, qadın, uşaq və qoca demədən günahsız insanları məhz azərbaycanlı olduqları üçün qətlə yetirdilər.

Soyqırımı nəticəsində 613 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 nəfər ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur. Həmin gün işğalçılarla qeyri-bərabər döyüşlərdə 17 polis əməkdaşı şəhid olub.

Xocalı soyqırımına hüquqi-siyasi qiyməti ilk dəfə ümummilli lider Heydər Əliyev verib. Onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. 1994-cü il martın 1-də isə Xocalı soyqırımı ilə bağlı xüsusi Fərman imzalanıb. Sonrakı dövrdə Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub. Prezident Heydər Əliyev 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" növbəti Fərman imzalayıb. Hər il fevralın 26-sı ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Bu gün qürurla deyə bilərik ki, 44 günlük Vətən müharibəsində və ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri ilə Xocalının qisası alındı, şəhidlərimizin qanı yerdə qalmadı.

*R.Əliyeva*

# Hərə bir qəhrəman oldu

## Vətən müharibəsi XXI əsrin möcüzəsi idi

**Bir qərinəyə yaxın Vətən həsrətimizə son qoymaq üçün 44 gün çəkən mücadiləmizin tariximizdə xüsusi yeri var. Yurdumuzu qarış-qarış azad etmək xoşbəxtliyini 3 il bundan öncə yaşadıq.**

Sevincimizlə kədərimiz qoşa qanad oldu o günlərdə. Qafqazın ən döyüşkən xalqı olduğumuzu yenidən təsdiq etmək üçün dəmir yumruğa dönüb düşmənin başına endik. Qələbə sorağı dalğa-dalğa gündoğandan-günbatana yayıldı. İllər öncə "Hüququndan keçən əsgər, hərə bir qəhrəman oldu" deyən Əhməd Cavadın ruhunu XXI əsrdə yenidən sevindirdik. Hərəmiz bir qəhrəman olub tarix yazdıq.

Həmin günlərin qəhrəmanlarından biri də bu gün daxili işlər orqanlarının sıralarında xidmət edən **Quliyev Ülvi Qəşəm oğludur**. O, 2002-ci il aprel ayının 27-də Cəbrayıl rayonunun Nüzgar kəndində doğulub. Beyləqan rayonundakı İlham Quliyev adına Mil kənd orta məktəbini bitirdikdən sonra Mingəçevir Turizm kollecində təhsil alıb. 2020-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Sentyabrın 27-də Vətən müharibəsi başlayan gün "Suqovuşan" uğrunda gedən döyüşlərə qatılan Ü.Quliyev vətənpərvər oğullarımızla bərabər 44 gün düşmənlə mübarizə aparıb.






Müharibədən qayıtdıqdan sonra polisin sıralarına qatılmaq üçün müraciət edib. 2022-ci ildən Beyləqan Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün polis nəferidir.

Ülvi deyir ki, bu gün ona görə qürurludur ki, müharibənin qızğın vaxtlarında ölümün gözünün içinə düz baxıb, böyük ruh yüksəkliyi ilə vətənini, torpağını mənfur düşməndən azad etmək üçün döyüşərək müqəddəs qələbəyə imza atanların sırasında olub.

# Məharətini göstər, dərəcəni al

## Əməkdaşların peşə tələblərinə uyğunluğu yoxlanılıb

Daxili İşlər Nazirliyi əməkdaşlarına "2-ci", "1-ci" və "usta" məharət dərəcələrinin verilməsi ilə əlaqədar növbəti imtahanlar keçirilib. İmtahanlar xidmətdə yüksək peşəkarlıq səviyyəsinin təsdiq edilməsi, bilik və bacarıqların, habelə peşə tələblərinə uyğunluğun yoxlanılması məqsədi daşıyır.

Məharət dərəcələrinin verilməsində öz üzərində daima çalışan, funksional vəzifələrini layiqincə yerinə yetirən, intizamlı, intizam tənbehi olmayan, eyni zamanda xidməti, döyüş və fiziki hazırlıq üzrə tədris ilini "yaxşı", eləcə də "əla" qiymətlərlə başa vuran əməkdaşlar iştirak ediblər.

Yoxlamalar iki mərhələdə həyata keçirilib. Əvvəlcə DİN-in müvafiq əmrinə əsasən yaradılmış komissiya tərəfindən namizədlərin test üsulu ilə nəzəri bilikləri qiymətləndirilib. Təqdim olunan 40 sualdan 30-dan çoxunu düzgün cavablandıranlar testdən uğurla keçmiş hesab olunublar. İkinci mərhələdə əməkdaşların müəyyən olunmuş normativlər əsasında praktiki cəhətdən atəş, fiziki və əlbəyaxa döyüş hazırlığı yoxlanılıb. Sonda həm nəzəri, həm də praktiki imtahanların nəticələri ümumiləşdirilərək protokollaşdırılıb.

# İnanırlar, güvənirlər...

## Minnətdarlıq hissilə yazılan məktublar etimaddır

**Üzləşdiyi problemin aradan qaldırılması üçün polisə üz tutanların, müraciət edənlərin sayı az deyil. Xidmətini vətəndaş məmnunluğu, etibar və etimad üzərində quran həmkarlarımız üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar ki, güvənc yeri kimi qazandıqları nüfuzu qoruyub saxlasınlar. Məhz bu səbəbdəndir ki, hər gün DİN-ə onlarla minnətdarlıq dolu təşəkkür məktubları ünvanlanır.**



**Riad Hüseynəliyev:** "Naməlum şəxslər tərəfindən təhqir olunmağımla bağlı polisə müraciət etdim. Müraciətimə həssas yanaşıldı və operativ baxıldı. Qısa müddətdə həmin şəxslər müəyyən edilərək saxlanıldı. Göstərilən köməkliyə görə Səbail RPİ-nin 39-cu Polis Bölməsinin şəxsi heyətinə minnətdarlığımı bildirirəm."

**Bakı şəhər sakini Samir Kərimov yazır:** "Pulumun dələduzluq yoluyla ələ keçirilməsi ilə bağlı polisə müraciət etdim. Obyektiv araşdırma aparıldı və görülmüş tədbirlərlə müraciətim qısa müddətdə müsbət həll olundu".

"Seçkilərdə səs vermək üçün ərazi üzrə seçki məntəqəsinə gəlmişdim. Orada xidmət göstərən polis əməkdaşları mənim əlil olduğumu gördülər. Maşından düşməyimə köməklik göstərib əlil arabamda əyləşdirdilər. Azərbaycan Polisi ilə bir daha qürur duydum". Bu sözlər **Vüqar Sadıqovun** ünvanladığı məktubdandır.

**Bakı şəhər sakini Elvin Vəliyev** yazır ki, 1670 manat dəyərində olan "Samsung" markalı soyuducunu onlayn qaydada müştəriyə satıblar. Müştəri pulu ödəmədiyindən soyuducunu geri qaytarmasını istəsələr də o, bundan imtina edib. Naəlac qalıb polisə müraciət ediblər. Nərimanov RPİ-nin 16-cı Polis Şöbəsi tərəfindən həmin şəxsin müəyyən edilməsində lazımi köməklik göstərilib.

**Elnarə Nəcəfova** müraciətinə obyektiv baxılmasına və dəymiş ziyanın ödətdirilməsinə görə Yasamal Rayon Polis İdarəsinin şəxsi heyətinə, **Elton Vəliyev** isə üzləşdiyi dələduzluq faktıyla əlaqədar etdiyi müraciətə operativ baxılmasına və göstərilən köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin şəxsi heyətinə minnətdarlıq edirlər.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Ayıq-sayıq xidmət nəticəsində...

## Cinayətkarlıqla mübarizədə yol polisinin də əməyi danılmazdır

Əsas vəzifələri piyadaların, sürücülərin rahat, maneəsiz hərəkət etməsini, bir sözlə yollarda hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin olunmasını təşkil edən yol polisləri cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində də ayıq-sayıq xidmət aparırlar. Ötən həftə yol kənarına atılmış odlu silahların aşkar olunaraq araşdırılması üçün aidiyyəti üzrə polis orqanına təhvil verilməsi faktları bunu deməyə əsas verir.

Belə ki, Bakı-Quba-Dağıstan sərhədi avtomobil yolunun Qusar rayonu, Quxuroba kəndi ərazisindən keçən hissəsində xidmət aparan YPX Alayının əməkdaşları tərəfindən yolun kənarında torpaq sahədə kisəyə bükülmüş qoşalülə ov tüfəngi tapılıb. Parçaya bükülmüş daha bir ov tüfəngi nişangah qurğusu ilə birlikdə Şəki rayonu Çeşməli kənd ərazisində yol polisləri tərəfindən götürülərək təhvil verilib.

Ümumiyyətlə, ötən il ərzində Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən 14 avtomat, 11 tüfəng, 1 tapança, 30 avtomat darağı, 3 əl qumbarası, 1 süngü bıçaq və xeyli sayda patron aşkarlanıb.

*Teymur Əlizadə*
*polis mayoru*

# Seçim gənclərindir

## Polis olmaq istəyənlərin arzusu gerçəkləşir

**Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq məqsədilə Nazirliyin nümayəndələri respublikanın şəhər və rayonlarında yuxarı sinif şagirdləri ilə görüş keçiriblər.**

Görüşlərdə polisin tarixi, daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, həmçinin DİN sistemində təhsil almaq imkanları barədə ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu il Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə 2024/2025-ci tədris ilində əyani təhsilə 500 kursantın qəbulu nəzərdə tutulub.

Tədbirlərdə bu təhsil ocağında yaradılan şərait "Virtual Akademiya" platforması vasitəsilə nümayiş olunub, müasir tədris korpusları, zəngin kitabxanalar, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançaları barədə şagirdlərə geniş məlumat verilib.

Ölkəmizdə gənclərin inkişafı üçün böyük layihələrin həyata keçirildiyini bildirən nazirlik nümayəndələri daxili işlər orqanlarının ölkəmizdə təmin etdiyi etibarlı sabitliyə töhfə vermək arzusunda olanlara dövlətimizin bütün imkanlarını səfərbər etdiyini vurğulayıblar.

Respublikanı əhatə edən görüşlərdə polis olmaq arzusunda olan gəncləri maraqlandıran suallar cavablandırılıb.

*"Polis"*

# Həmkarımızın qələbə sorağı

O, Avropa çempionudur



Bolqarıstanın paytaxtı Sofiyada ağırlıqqaldırma üzrə Avropa çempionatı keçirilib. Həmin yarışda 43 ölkədən 402 atlet mübarizə aparıb.



Polis baş leytenantı Dadaş Dadaşbəyli körpücük üzərinə qalxıb. 109 kq çəki dərəcəsində qüvvəsini sınayan həmkarımız birdən qaldırma hərəkətində 176 kiloqramın öhdəsindən gəlib və bu hərəkətdə Avropa çempionatının qalibi olub.

Sonra o, təkanla qaldırma hərəkətində də eyni uğuru təkrarlayıb. Bu dəfə 212 kiloqramı başı üzərinə qaldıraraq bütün rəqiblərini qabaqlayıb.

D.Dadaşbəyli toplam 388 kq (176+212) nəticə göstərərək 3 qızıl medalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, o, kişilər arasında ağırlıqqaldırma üzrə Avropa çempionatının qızıl medalını ölkəmizə qazandıran ilk idmançıdır.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Gəncləri qoruma borcu

Valideyn, məktəb, polis üçlüyü...

Müasir dövrdə yeniyetmələri kriminal aləmin içinə sürükləyən kifayət qədər risk var və ən pisi də odur ki, onların sayı durmadan artır. Çünki internet təhdidlərin miqyasına qlobal mahiyyət qatıb. Narkotik təbliğatı, kiber zorakılıq, kriminal “subkultur” bir anın içində sərhədlərimizi aşa bilir. Bundan da ilk növbədə gənclər təsirlənir.

Yeni çağın təhdidlərinə qarşı elə yeni çağın imkanlarından istifadə edib, gəncləri maarifləndirməklə, bir növ, zəhərlənməyə zərdablama aparmaq mümkündür. Polisin həm də sosial platformalar üzərindən həyata keçirdiyi profilaktik tədbirlərlə gənclərə təhdidlərdən daha tez çatmağa çalışması bunun bir örnəyidir. Nəticə isə qənaətbəxşdir. Bütün ölkə üzrə yeniyetmələr tərəfindən törədilən cinayətlər ümumi cinayətlərin yalnız bir faizi civarında dəyişir.

Bununla belə, yeniyetmələrin kriminal hadisələrdə minimal iştirakı narahatlığımızı azalda bilməz. Xüsusən, məktəblilər arasında xoşagəlməz hadisələrin baş verməsi, yeniyetmələrin hüquqpozuntularının profilaktikasının əhəmiyyətini qat-qat artırır. Yetkinlik yaşına çatmayanlarla iş aparan polis əməkdaşlarının əməyi belə məqamlarda xüsusən nəzərə çarpır.

Nizami RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi polis mayoru Natiq Yusifov deyir ki, rayon ərazisində fəaliyyət göstərən məktəblərin şagirdləri, kiçik insidentlər nəzərə alınmamaqla, hər hansı hüquqpozuntusunda, cinayətdə iştirak etməyiblər. Ötən il rayon ərazisində yeniyetmələrin törətdiyi hadisələr isə rayonda müvəqqəti məskunlaşanlar arasında olub. Onlarla bağlı toplanan məlumatlar da qeydiyyatda olduqları rayonlara göndərilib ki, profilaktik qeydiyyata götürülsünlər. Bölmə rəisi hesab edir ki, şagirdlərin kriminal davranışlardan çəkinməsində, kriminal təsir altına düşməməsində rayon polis idarəsinin rəhbərliyinin iştirakı ilə keçirilən maarifləndirici tədbirlərin böyük faydası olub.

Nəsimi Rayon Polis İdarəsinin inspektoru polis mayoru Yeganə Zeynalova da bildirir ki, məktəblərdə sinif-sinif gəzib, hətta hiperaktiv, mütəmadi səs-küy salan uşaqlarla profilaktik söhbətlər aparırlar. Şagirdlər arasında baş vermiş insidentlərə gəlincə, müsahibimiz qeyd edir ki, burada ailə tərbiyəsi, valideyn nəzarətsizliyi əsas faktordur.

Əsasən də oğlan uşaqlarına valideynlərinin verdikləri sərbəstlik, onların zərərli davranışlarına göz yumulması xoşagəlməz hadisələrə zəmin yaradır.

Zənnimizcə, paytaxtın iki rayonunun nümunəsində qeyd etdiklərimiz ümumiləşmə aparmaq üçün yetərlidir. Cinayət məsuliyyətinə cəlb etməyə imkan verməyən yaş kateqoriyası ilə işləmək, soyuq silah gəzdirmənin, kriminal hadisələrə qatılmağın, özlərini “qanundankənar” hesab edənlərin dünyasına qoşulmağın fəsadını, ağır nəticəsini izah etməkdən, başa salmaqdan ibarətdir. Polisin və məktəbin bu işi valideynlərə övladlarının təlim-tərbiyəsinə əlavə dəstək mahiyyəti daşıyır. Bu xidməti vəzifədir, ancaq ailə ilə iş bölgüsü deyil. Çünki övladın vətəndaş kimi yetişdirilməsinin məsuliyyətini valideynin çiyinlərindən heç kəs götürməyib.

*Rəşad Mehtiyev*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Vəsatət təmin olundu

Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

Mühafizə polisində baş xəfiyyə vəzifəsinə təyinat alan kimi, gələcək fəaliyyətimdə mənə lazım olacaq anket məlumatlarını toplamağa başladım. Müttəhimlər haqqında nə qədər çox məlumatlı olsam, o qədər, işin xeyrinə olacağını düşünürdüm. Bununla mən həm həbsxanadan qaçanı harda axtarmağın lazım olduğunu, həm də azadlığa çıxmış köhnə məhkumları asanlıqla nəzarətdə saxlaya biləcəkdim. İşə yarayacaq lazımi məlumatları toplamaq üçün agentlərimlə birlikdə Bister qalasına getməyim barədə cənab Anriyə vəsatətlə müraciət etdim. Cənab Anri müxtəlif arqumentlər gətirərək məni bu təhlükəli fikirimdən daşındırmağa çalışdı. O, qalaya getməyimin xeyrindən çox ziyanı olacağı qənaətindəydi.

- Mənə məlumat çatıb ki, dustaqlar sizə qarşı suiqəsd planı hazırlayıblar. Siz Bisterə getməklə çoxdan səbirsizliklə gözlədikləri fürsəti onlara vermiş olacaqsınız. Mən sizin təhlükəsizliyinizə təminat verməkdə çətinlik çəkirəm.

Rəhbərliyə göstərdiyi diqqətə görə təşəkkür etməklə yanaşı, getməyimə icazə verməsini təkidlə xahiş etdim.

### Cəsarətli nitq

Növbəti etap günü bir neçə agentimlə birlikdə Bisterə yollandıq. Həyətə daxil olan kimi həbsxananı bütün pəncərələrdən dəhşətli qışqırıq səsləri ətrafı bürüdü. “Rədd olsun, satqınlar! Rədd olsun, xəfiyyələr! Rədd olsun, Vidokun quldurları! Yüzlərlə məhbus, hətta bəziləri çiyin-çiyinə çıxaraq öz iyrənc sifətlərini dəmir barmaqlıqlara sıxaraq bağırırdılar. İrəli bir neçə addım atmağımla qışqırıq səsləri daha da şiddətləndi. İntiqam arzusu ilə alışıb-yanan bu qaniçən sifətləri görmək həqiqətən də dözülməz idi. İstər-istəməz həyəcan hissi keçirdim. Bir anda ehtiyatsız davradığıma görə özümü qınayaraq az qala geri çəkiləcəkdim. Nəhayət cəsarətimi toplaya bildim. Mən heç bu bədxaqlardan öz məkanlarında çəkinməmişəm, indi onların səsləri məni qorxudacaq? Belə məqamda həyatımız bahasına olsa da geri addım atmaq olmazdı. Dəyanət nümayiş etdirməliydim ki, onlardan çəkindiyimizi düşünməsinlər. İlk keçirdiyim həyəcan bir andaca yox oldu. Bu o qədər ani




baş verdi ki, dustaqlar belə həyəcanlandığımı hiss etmədilər. Bir-bir pəncərələrə göz gəzdirdim, hətta son mərtəbəyə yaxınlaşmaqdan belə çəkinmədim. Etinasız hərəkətlərim dustaqları özündən çıxarmışdı. Sanki onlar insan yox, qəfəsdə vurnuxan vəhşi heyvan idilər. Səs-küy və həyacan o qədər güclü idi ki, az qala bina silkələnib dağılacaqdı. Əlimi havaya qaldıraraq söz demək istədiyimi işarə etdim. Sanki qurbağa gölünə daş atıldı. Hər kəs maraqla nə deyəcəyimi eşitmək üçün diqqətlə mənə qulaq asmağa başladılar. “Ey siz yaramazlar, neynəmək istəyirsiz? Söyüş və təhqirlərinizin indi heç bir mənası yoxdu. Bunu mən sizi yaxalanmadan əvvəl düşünməli idiniz! Mənə casus deyirsiz, bəli, mən casusam. Bəs onda siz kimsiniz? Boynunuza alın ki, sizin aranızda həbs olunmaması üçün mənə yalvararaq yoldaşlarını satmağa hazır olmayan bir nəfər belə yoxdur. Heç bir oğruyla belə bir sövdələşməm olmayıb və bundan sonra da olmayacaq. Bəli, sizə qarşı mərhəmətli olmamışam, bu, doğrudur. Amma nəyə görə mərhəmətli olub, sizi qorumalıydım? Azadlıqda olanda məni tanıyan və yaxud nə vaxtsa mənimlə işlədiyini deyən bir nəfər var içinizdə? Tutaq ki, mən də oğruyam, bəyəm, bu nəyisə dəyişir? Siz axmaqlardan fərqli olaraq öz çevikliyim və məharətim sayəsində heç vaxt yaxalanmamışam. İçinizdə ən cəsarətlisi söyləsin görək, nə zaman oğurluqda və dələduzluqda ittiham olunmuşam? Bir dəlil, hətta bir fakt belə göstərsəniz sizin hamınızdan da artıq əclaf olduğumu etiraf etməyə hazıram. Bütün söylədiklərimi qəbul etmək istəmədiyiniz həqiqətlərdi. Ən çox kim məni təqsirkar sayır, buyursun, o söyləsin. Gündə neçə yüz dəfə mənim yerimdə olmadığınız üçün özünüzü qınayırsız?”

Nitqimi bitirdikdən sonra ətrafı fit səsləri bürüdü. Ardınca qışqırıq və gurultu daha da şiddətləndi. Ətrafda baş verənlər onlara nifrətimi artırsa da, cəsarətimi daha da gücləndirdi. Məhkumları qandallamaq üçün həyətə düşürüb cərgəyə düzdülər. Həyatımı riskə ataraq cərgələrin arasında gəzişməyə başladım. Bayaqdan məni öldürəcəkləri ilə hədələyənlərin buna cəsarətinin çatacaqlarına əmin olmaq istəyirdim. Etiraf etməliyəm ki, onlardan qisas almaq üçün bu əclaflardan birinin mənə əl qaldırmağa ürək etməsini daxilən arzulayırdım.

*(Ardı var)*

# Bizim idman uğurumuz

DİN İdman Cəmiyyətinin yetirmələri fərqlənib



**Fevralın 15-dən–18-dək Abşeron Olimpiya İdman Kompleksində Sambo federasiyasının təşkilatçılığı ilə sambo üzrə respublika çempionatı keçirilib.**

Yarışda respublika üzrə 600 nəfərə yaxın samboçu gücünü sınayıb.

Çempionatda İdman Cəmiyyətinin yetirmələri - DİN Komendant Xidmətinin İnzibati binaların təhlükəsizliyinin təmini bölüyünün polis kiçik serjantı Sabir İsayev 98+ kiloqram çəki dərəcəsində qızıl medal qazanıb. Sumqayıt Şəhər Polis İdarəsinin Post-Patrul Xidməti Taborunun taqım komandiri polis leytenantı Eyvaz Nəsibli isə 98 kiloqram çəki dərəcəsində aktivinə gümüş medalı yazdırıb.

Qeyd edək ki, komanda üzrə DİN İdman Cəmiyyəti 1-ci olub.

❖❖❖



**Fevralın 17-18-i tarixlərində Sərhədçi İdman Olimpiya mərkəzində Xocalı idman klubunun təşkilatçılığı ilə 6-cı dəfə “Xocalıya ədalət" şüarı altında kikboks üzrə yarış keçirilib.**

Yarışda 51 klubdan 600-dən çox idmançı iştirak edib. DİN İdman Cəmiyyətinin yetirmələri komandalar arasında 1-ci yerə layiq görülüb. Onlar aktivlərinə ümumilikdə 16 qızıl, 12 gümüş, 12 bürünc medal yazdırmaqla növbəti dəfə sayca 28-ci kuboku qazanıblar. **Komandamızı bu yarışa DİN Baş Mühafizə İdarəsinin Növbətçi Hissəsinin Komendant manqasının komandiri polis baş serjantı Hikmət Hacıyev hazırlayıb.**

❖❖❖



**Bu günlərdə Tehran şəhərində taekvando üzrə beynəlxalq “Fəcr open” turniri keçirilib.**

Yarışda dünyanın 8 ölkəsindən 460 idmançısı birincilik uğrunda mübarizəyə qoşulub.

Millimizin tərkibində yer alan DİN İdman Cəmiyyətinin yetirməsi Eltac Qafarov 80 kiloqram çəki dərəcəsində turnirin bürünc mükafatçısı olub.

Qarşılaşdığı iki görüşdə rəqiblərinə qalib gəlib. Növbəti döyüşündə üstünlüyə nail olsa da, əlindən ciddi zədə aldığı üçün döyüş hakim tərəfindən dayandırılıb.

**Yetirməmizi bu yarışa DİN İdman Cəmiyyətinin məşqçi-müəllimi Səbuhi Zülfüqarov hazırlayıb.**

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9891

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik